***İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma, tikinti və bərpa işləri beynəlxalq aləmdə böyük əks-səda doğurub. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tarixi qələbədən bir həftə sonra Füzuli və Cəbrayıl rayonlarına ilk səfərləri zamanı işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin təməlini qoydular. Ondan sonra Qarabağa mütəmadi səfərlər edir, yeni obyektlərin təməlini qoyur, tikintisi başa çatdırılan obyektlərin isə açılış mərasimlərində iştirak edirlər. Bu günə qədər dövlət başçımız və Birinci vitse-prezident işğaldan azad edilmiş ərazilərə 40-a yaxın səfər ediblər. Təkcə Şuşada 7 dəfə olublar. Bunun nəticəsidir ki, bu gün Qarabağda aparılan genişmiqyaslı tikinti və bərpa-quruculuq işləri beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edib.***

*Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir. Zəngilan şəhər məscidi də, həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***





# Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə öz töhfələrini verir

İşğadan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma, bərpa və quruculuq işlərində də Heydər Əliyev Fondu yaxından iştirak edir. Xüsusilə, milli dəyərlərimizin, o cümlədən, dini abidələrin bərpasına öz töhfələrini verir. Ümumiyyətlə, fond təsis olunduğu gündən bu vaxta qədər Azərbaycanın beynəlxalq aləmdə geniş təbliğində, onun humanist və milli-mənəvi dəyərlərə sadiq dövlət imicinin formalaşdırılmasında xüsusi fəallıq göstərib. Həmin xeyirxahlıq və humanizm prinsipləri bu gün də davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri başlanan gündən Heydər Əliyev Fondunun, şəxsən fondun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib.

Bu barədə Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirmişdir. Qeyd edib ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır: "Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır".

Birinci xanım qeyd edir ki, bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaq. Əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb-yaradacaqlar".

Möhtərəm Prezidentimiz hələ 2021-ci il martın 16-da Şuşa şəhərinə səfəri zamanı demişdir ki, Heydər Əliyev Fondu şəhərin bərpasına öz sanballı töhfələrini verəcək: "Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Artıq işlərə start verilib. Bunu, həmçinin Molla Pənah Vaqifin büstünün bərpası layihəsini Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək..."

Artıq bu işlər də başa çatdırılmış, hətta Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şuşadakı Yaradıcılıq Mərkəzində "Yaddaş. Fotoqrafik tarix", Rəsm Qalereyasında "Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir" və Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" adlı sərgilərin açılışı olub. Şuşa Rəsm Qalereyasında isə "Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir" sərgisi təqdim edilib.

Hər üç sərgidə nümayiş olunan qiymətli sənət nümunələri dünənlə bu günün vəhdətini yaratmaqla yanaşı, xalqımızın bənzərsiz sənətkarlıq xüsusiyyətlərini nümayiş etdirir. Burada nümayiş olunan bütün əsərlər sərgi iştirakçıları tərəfindən böyük maraqla qarşılanır. Çünki hər fotoşəkil, hər rəsm əsəri, hər xalı nümunəsi təkcə dünən deyildi, həm də sabaha ünvanlanmış bir ismarıcdır. Eyni zamanda, bu əsərlər tariximizin bir parçası olmaq şansını qazanmış sənət inciləri olmaqla yanaşı, onu yaradan sənətkarların timsalında xalqımızın nəyə qadir olduğunu, istedadını göstərir. Elə buna görə də hər bir iştirakçı bu sənət nümunələrinə baxmaqdan doymur, təkrar-təkrar baxaraq, hər rəngdə, hər ilmədə nələrisə duymağa, nələrisə kəşf etməyə çalışır. Bu sərgilər bizə bizim yaddaşımızdan, kimliyimizdən, nələrə sahib olmağımızdan xəbər verirdi.

Sərgidə nümayiş olunan sənət incilərinə baxanlar sırasında olan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəylinin dediklərini xatırlatmaq yerinə düşərdi: "Xoşbəxtəm ki, bu gün bu tədbirdə iştirak edirəm. Xoşbəxtəm ki, mayın 13-də "Xarıbülbül" festivalında iştirak etmişəm. Şuşa hər bir azərbaycanlı üçün unikal bir şəhərdir. Bütün şəhərlər bizim üçün doğmadır, Naxçıvan da, Kəlbəcər də, Tərtər də, Zəngilan da. Amma Şuşa özlüyündə nadirdir və onun öz yeri var. Ziyalılarla birlikdə bu gözəl tədbirdə iştirak etmək mənim üçün böyük bir şərəfdir".

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən sərgidə Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Nadir Abdurrəhmanov, Mikayıl Abdullayev, Ucal Haqverdiyev, Müseyib Əmirov və Azərbaycanın digər görkəmli rəssamlarının əsərləri də yer almışdı. Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilib. Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə Xalq rəssamı Altay Hacıyevin "Məclisi-üns", Xalq rəssamı Səttar Bəhlulzadənin "Yuxarı Daşaltı", Əməkdar rəssam İnna Kostinanın "Qarabağın zənginliyi", Leyla Əliyevanın "Xarıbülbül" əsərləri, Faiq Hacıyevin "Qarabağ atı", Orxan Nəbizadənin "Qarabağ gözəli" kimi heykəltəraşlıq nümunələri və digər əsərlər nümayiş olunmuşdu.

Heydər Əliyev Fondu tərəfindən Şuşada bərpa və təmir olunaraq yaradılan Xalçaçılıq qalereyasında isə "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgisi açılmışdı. Fondun təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycan Milli Xalça Muzeyinin təqdimatında xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunurdu. Sərgidə, həmçinin Milli Azərbaycan Tarix Muzeyinin kolleksiyasına daxil olan xalça nümunələri yer almışdı.

Milyonlarla insanın ümid və pənah yerinə çevrilmiş Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə mədəni və dini abidələrin bərpasında fəaliyyətini davam etdirir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam və Ağcabədi rayonlarına səfərləri çərçivəsində Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olublar. Dövlət başçımız bərpa işlərinin Heydər Əliyev Fondunun hesabına görüldüyü barədə məlumat verib və bunun Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsi olduğunu diqqətə çatdırıb.

Heydər Əliyev Fondunun işğal edilmiş ərazilərdə bu vaxta qədər milli-mənəvi dəyərlərimizin, dini abidələrin bərpası istiqamətində gördüyü digər işlər böyük rəğbətlə qarşılanır. Azad edilmiş torpaqlarda fondun dəstəyi ilə hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi həyata keçirilir. Ümumiyyətlə, Heydər Əliyev Fondu Qarabağda, xüsusilə Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin, dini ziyarətgahların təmiri və bərpası işlərini öz üzərinə götürüb. Fondun layihəsi çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahların bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

Qarabağ Azərbaycan incəsənətinin və mədəniyyətinin mərkəzi kimi qədim tarixə malikdir. İşğal dövründə talan olunmuş muzeylərdə Azərbaycana məxsus tarix və mədəniyyətin qiymətli nümunələri, dünyada məşhur olan xalçalarımız və görkəmli şəxsiyyətlərimizin xatirə əşyaları, həmçinin digər dəyərli eksponatlar olub. İşğal zamanı mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələri də məhv edilmişdir. Sözügedən məhv edilmiş xəzinələr təkcə Azərbaycanın deyil, həm də bütün dünya mədəniyyətinin nümunələri idi. Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə Qarabağda indi milli-mənəvi dəyərlərimizin bərpası istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilir.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**